# Yer haqqında elmlərin inkişaf yolunun nümayəndəsi

## Akademik Akif Əlizadənin 90-illik yubileyi münasibətilə



***"Gözlərinizi ulduzlarda, ayaqlarınızı yerdə saxlayın". Şübhəsiz, Ruzvelt bununla demək istəyib ki, yüksək amallarla irəliləyərkən ayaqlarını yerə möhkəm bas, bu enişli-yoxuşlu yolda daim irəli get! Bu sözlər akademik Akif Əlizadənin həyat fəlsəfəsini necə də aydın əks etdirir***

**Fevral ayının 25-də Azərbaycanın geologiya, paleontologiya, stratiqrafiya sahəsində görkəmli alim, Elm və Təhsil Nazirliyi Geologiya və Geofizika İnstitutunun baş direktoru, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, D?vl?t m?kafat? laureatı, "??r?f ni?an?" ordeninin, "Fədakar əməyə görə" medalın sahibin, "Şöhrət", "Şərəf", "İstiqlal", I-ci dərəcəli "?m?k" ordeni... və digər fəxri adlar və mükafatlar sahibi Akif Ağamehdi oğlu Əlizadənin 90 yaşı tamam olur.**

Akif Əlizadə əfsanəvi bir alimdir, onun apardığı çoxillik tədqiqatları əsasında təbaşir mollyuska faunasının (belemnitlər) komplekslərı barədə irəli sürülmüş müddəaların və təsnifatın hazırlanması, paleobiocoğrafi rayonlaşdırma prinsiplərinin (postulatların) irəli sürülməsi, paleopatologiyaya elmi istiqamətinin işıqlandırılması Azərbaycan paleontologiya elminə böyük töhfələrindəndir. O, işlədiyi illər ərzində həm Respublikada, həm də dünyanın müxtəlif ölkələrində bir çox geoloji-paleontoloji ekspedisiyaların fəal iştirakçısı olub.

Akif müəllimi 1998-ci ildən bu günə qədər fasiləsiz çalışdığım İnstitutun aspiranturasında (indiki doktorantura) təhsil aldığım müddətdən yaxından tanıyıram. Yaxşı bilirəm ki, elmə, yeniliyə həvəs, bu yolda daim irəliyə baxmaq həvəsi hələ yeniyetməlikdə qanına hopub. Elə məktəb illərindən də yaşıdlarından fərqlənib. Orta məktəbi gümüş medalla bitirib, ailə ənənəsini davam etdirərək Tibb İnstitutuna daxil olmaq arzusunda olub. Amma tale ona Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) yaraşıqlı tələbə forması geyməyi qismət edib. Öz seçimində yanılmadığı üçün Neft geologiyası kafedrasından Azərbaycan ərazisində və Xəzər dənizində fəaliyyət göstərən palçıq vulkanları barədə mövzu götürür və tədqiqata başlayır. Xəzər akvatoriyasındakı "Buzovna sopkası" adlı palçıq vulkanı 19 yaşlı tələbəni daha çox maraqlandırır və o, müxtəlif laboratoriyalardan əldə etdiyi analizlər əsasında hazırladığı elmi məruzə ilə tələbə elmi cəmiyyətinin ümumi yığıncağında çıxış edir. Müsabiqə komissiyasının sədri akademik Yusif Məmmədəliyevin imzaladığı üçüncü mükafata layiq görülməsi haqqında vəsiqə alır. Laboratoriyada işə başladığı günlərdə işgüzarlığı ilə diqqəti cəlb edir və çöl işlərinə aparılır. Böyük Qafqazın təbaşir çöküntülərini öyrənərək elmi problemi müəyyənləşdirir. Bir il baş laborant işlədikdən sonra kiçik elmi işçi vəzifəsinə irəli çəkilir. Onun işə başladığı laboratoriyanın müdiri Azərbaycan MEA-nın ozamankı prezidenti akademik Musa Əliyev olub. İllər sonra Akif müəllim Musa Əliyev haqqında xatirələrini çap etdirir. İki ildən sonra - 27 yaşında namizədlik dissertasiyasını uğurla müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi adını qazanır. Cəmi 8 ildən sonra geologiya-mineralogiya elmləri doktoru olmuş, 1980-ci ildə, yəni 46 yaşında Azərbaycan MEA-nin müxbir üzvü, 9 ildən sonra isə həqiqi üzvü seçilir. Onu, ailəsini yaxşı tanıyanlar deyir ki, başqa cür ola da bilməzdi. Ailə şəcərəsindən genetik kodla gələn yüksək əxlaqi keyfiyyətlər, çoxyönlü istedad, insanların inamını və etibarını qazanmaq qabiliyyəti, tükənməz enerji, məsuliyyət və bir sıra digər məziyyətlər Akif Əlizadəni kamil alim və rəhbər kimi yetişdirdi. Bu yüksəliş yollarında, özünün də qeyd etdiyi kimi, unudulmaz müəllimlərinin - akademik Musa Əliyevin və professor Əbdülhəmid Xəlilovun müstəsna rolu olub.

Geoloq alim Qafqazın təbaşir hövzələrinin bio-geokimyəvi rayonlaşdırılması metodlarının işlənilməsi və təkamül amili kimi paleohövzələrdə geokimyəvi şəraitin öyrənilməsi sahəsində fundamental tədqiqatlar aparıb. Fossil orqanizmlərin skelet hissələrinin mikrostruktur, kimyəvi tərkib və kristallokimyəvi xüsusiyyətlərinin təhlilinə əsasən o, müxtəlif kimyəvi elementlərin miqrasiya və toplanma qanunauyğunluqlarını, ayrı-ayrı taksonların paleofizioloji xüsusiyyətlərini müəyyənləşdirib. Təbaşir dəniz fəqərəsizlərinin geokimyəvi ekologiyasını təsvir edib. Alim ilk dəfə izotop paleotermometriya üsulu ilə O18 və O16 izotoplarının nisbətinə görə Azərbaycanın təbaşir hövzələri üçün paleotemperatur qiymətlərini təyin edə bilib. Onun daxili qabıqlı mollyuskaların öyrənilməsində rolunu xüsusi qeyd etmək lazımdır. Tabaşir belemnitlərinin öyrənilməsində onun adı ilə belemnitlərin yeni ailəsi - "Akifibelidlər" adlandırılıb (1984-cü il). AMEA Mərkəzi Nəbatat bağında isə Akif Əlizadənin şərəfinə qızılgül sortu yaradılıb.

Akif Əlizadənin rəhbərliyi ilə səkkiz cildlik unikal fundamental - "Azərbaycan geologiyası", habelə ensiklopedik "Azərbaycanın mineralları" atlası yaradılaraq nəşr edilib. 2012-ci və 2013-cü illərdə akademikin təşəbbüsü və rəhbərliyi ilə Geologiya və Geofizika İnstitutunda Azərbaycan Dövlət Neft Akademiyasının və Bakı Dövlət Universitetinin baza kafedraları yaradılıb. O isə çoxsaylı elmi əsərləri sırasında unikal əsər olan Geologiya və Geofizika İnstitutunu daha çox əzizləyir. İllər ərzində Geologiya İnstitutu (2014-cü ildən Geologiya və Geofizika İnstitutu (GGİ) adlanan) Azərbaycan Milli Elmlər Akademiyası sistemində ən elitar institutlardan biri adını qazanıb. Müxtəlif vaxtlarda GGİ-də 10 akademik, 40 dan çox elmlər doktoru çalışıb. Müasir dövrdə elmin inkişaf perspektivlərini hiss etmək, Qərb universitetləri ilə əməkdaşlıq, kadrların xaricdə ixtisasartırma kursları keçməsi yalnız elm təşkilatçısı A.Əlizadənin uzaqgörənliyi və səyilə mümkün olub.

2000-ci illərdə Akif Əlizadənin rəhbərliyi altında "Ekson", "Mobil", "Amoko", "Yunokal", BP və digər əcnəbi şirkətlərlə müştərək tədqiqatlar aparılıb, qrant layihələri reallaşıb. Elmin inkişafı üçün kompüterləşmənin rolunu və əhəmiyyətini düzgün qiymətləndirən elmi müəssisə rəhbəri əldə edilmiş vəsaitin bir hissəsini analitik avadanlığın yenilənməsinə sərf edib. Akif müəllimin bütün bu sadalanan və demədiyimiz işgüzar fəaliyyətinin nəticəsidir ki, Azərbaycanda Yer haqqında elmlərin fərəhli tarixi yaddaşlara həkk olunub. Akif Əlizadə təkcə elm sahəsindəki təcrübəsi ilə deyil, həm də tələbələrinin uğurları naminə fədakarlığı ilə nümunəvi bir alim kimi seçilir. Magistratura və doktorantura üçün A.Əlizadənin ayırdığı maliyyə dəstəyi sayəsində tələbələrin təhsilə, tədqiqatlara daha çox meyl etmələrinə şərait yaradıb. Bu cür dəstək həm də tələbələrə konfranslarda, seminarlarda və onların peşəkar inkişafına əhəmiyyətli töhfə verən digər akademik tədbirlərdə iştirak etməyə imkan verir.

Əlbəttə, Akif Əlizadə hələ hamısını sadalamadığımız bu işlərin əvvəldən axıra kimi, necə deyərlər, "gur yerində" mövqe tutub. Geologiya və Geofizika İnstitutunu, yeni onun rəhbərini fərqləndirən daha bir məziyyətini xatırlatmamaq sadəcə mümkün deyil. Akademik Akif Əlizadə elmin populyarlaşdırılması vəzifəsini həmişə diqqətdə saxlayır. Bu baxımdan onun layihə rəhbəri olduğu "Elmi cazibəsi" çoxlildliyinin artıq 4 sayı hazırlanıb.

Geologiya və Geofizika İnstitutunun binasının səliqə səhmanı, gözəlliyi, abadlığı, əməkdaşların maksimum iş şəraiti, xoş ovqatın mövcudluğu, gəncləri elmi yaradıcılığa yönəldilməsi nəhəng elmi quruma rəhbərliyin məsuliyyəti, Akif Əlizadənin bu yolda düzgün irəlilədiyini aşkar göstərir. Qayğıkeşlik, tələbkarlıq, istənilən mürəkkəb vəziyyətdə yubanmadan düzgün qərar çıxarmaq qabiliyyəti ilə yanaşı, həmkarın kədərinə, probleminə laqeyd qala bilməməyi onun ziyalı həssaslığından xəbər verir. Zahiri görünüşü, səlis danışıq tərzi işçilərə rahatlıq, özünə inam aşılayır. Xoşbəxt, nikbin, gümrah görkəmli, zəngin mütaliəli, milli poeziya və ədəbiyyat vurğunu rəhbər isə sirr deyil ki, daim öz üzərində çalışan insan ola bilər. Akademik Akif Əlizadə kimi, nübalığəsiz vurğunlanmalıdır ki, kollektiv ona dərindən hörmət edir, ata, məsləhətçi kimi qəbul edir. Təkcə onun iş otağının - kabinetinin qapısında "qəbul günləri..." lövhəsinin olmaması artıq çox şeydən xəbər verir. Hələ təvazökarlığı və yumor hissi! Ətrafdakıların ona xoş münasibətindən söz düşəndə deyibmiş: "Bütün bu duyğuların 50 faizi səmimidirsə, mənə kifayət edər".

Mən gənc yaşlarımdan Akif Əlizadənin yanında dərs aldım, institutda fasiləsiz elmi fəaliyyətimlə yanaşı yeddi il ərzində Gənc Alimlər Şurasının sədri oldum, onun AMEA-nın prezidentliyi zamanında Beynəlxalq Əlaqələr İdarəsinin rəisi vəzifəsində çalışdım və heç vaxt qırmızı xətti keçmədim. Onun insani keyfiyyətlərindən biri də yaxşılığı unutmamasıdır. Çox insanlara kömək etməsinə baxmayaraq, bəziləri bunu qiymətləndirmədi. Akif Əlizadənin gözlərinin içinə baxmaq ilk əvvəl çətin olur, çəkinirsən. Nüfuzedici baxışlarında sanki sehr var, təmkini, səbri ilə qəlbləri ələ alır, cəlb edir. Təhsilini Azərbaycan dilində almasa da, fasiləsiz poeziya nümunələri, dram əsərlərindən replikalar söyləyə bilər. Görünür, özü də poeziya nümunələri yaratmağa çalışır. Məsələn:

**Hər zaman uca tut insanlıq adın,**
**Unutma heç yerdə - insandır adın.**
**Çalış qəlbə dəymə, xeyirxahlıq et,**
**Xoş əməl yaşadır insan övladın.**

İnstitutda rəhbəri olduğum şöbənin adından Akif müəllimi səmimi qəlbdən təbrik edirəm, ona möhkəm cansağlığı, daim nikbin ovqat, ilham, həyatın və yaradıcılığın bütün sahələrində uğurlar arzulayıram.

**Qulam Babayev,**
**Elm və Təhsil Nazirliyi Geologiya və Geofizika İnstitutunun şöbə rəhbəri, Yer elmləri üzrə elmlər doktoru, dosent**